

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 18 noyabr 2026-cı il №81 (3083) https://mod.gov.az Qiyməti 30 qəpik

Prezidentin sosial şəbəkə hesablarında Milli Dirçəliş Günü ilə bağlı paylaşım edilib

Prezident İlham Əliyevin sosial şəbəkə hesablarında Milli Dirçəliş Günü ilə bağlı paylaşım olunub.

AZƏRTAC paylaşımı təqdim edib.



Birinci vitse-prezident Mehriban Əliyeva sosial media hesabında Milli Dirçəliş Günü ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial media hesabında 17 Noyabr - Milli Dirçəliş Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edib.



Müdafiə Nazirliyinin məlumatı

Azərbaycan Ordusunda xidmətə yeni başlayan gənc əsgərlərin sağlamlığını qorumaq məqsədilə həyata keçirilən preventiv tədbirlərlə əlaqədar hərbi hissələrdə görüşə müvəqqəti məhdudiyyət qoyulub.

Hərbi hissələrdə effektiv profilaktik tədbirlərin görülməsi sayəsində şəxsi heyət arasında respirator xəstəliklərə, o cümlədən qrip infeksiyasına yoluxma hallarının qarşısı alınır.

Gənc əsgərlərin valideynlərindən, eləcə də bütün vətəndaşlardan hərbi qulluqçularımızın sağlamlığına həssaslıqla yanaşmağı, məhdudiyyəti anlayışla qarşılamağı və gənc əsgərlərin xidmət etdiyi hərbi hissələrə gəlməməyi bir daha xahiş edirik.

Qeyd olunan məhdudiyyət götürüldükdən sonra ictimaiyyətə əlavə məlumat veriləcəkdir.

Reportaj

Hərbi Hava Qüvvələrimizin pilotları - səma şahinlərimiz



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə İkinci Qarabağ müharibəsində qazanılan Böyük Qələbədə Hərbi Hava Qüvvələrimizin şəxsi heyətinin də özünəməxsus rolu oldu. Ordumuzun hər zaman müsbət cəhətdən seçilən qoşun növlərindən hesab edilən Hərbi Hava Qüvvələrinin əsası Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulsa da, ötən əsrin sonlarından formalaşmağa başlayıb və qısa müddət ərzində Cənubi Qafqazın ən aparıcı və lider qüvvəsi olaraq özünü təsdiqləməyi bacarıb.

Şanlı hərb tariximizə qızıl səhifələr yazan Hərbi Hava Qüvvələrimizin inkişafı Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin birbaşa adı ilə bağlıdır. Belə ki, məhz Əbədiyaşar Komandanın rəhbərliyi dövründə Azərbaycan HHQ-nin gücləndirilməsi və onun maddi-texniki bazasının imkanlar daxilində inkişaf etdirilməsi prioritet məsələlərdən idi. Məhz bu işin hərbi təhsilinin fundamental əsaslarının qoyulması məqsədilə 1997-ci ildə Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi fəaliyyətə başladı. Hərbi pilotlarımızın yetişdirilməsi məqsədilə yaradılan bu məktəbin buraxılış mərasimində çıxış edən Ulu Öndər Heydər Əliyev milli şahinlərimizi təbrik etmiş, onlara gələcək xidmətlərində müvəffəqiyyətlər arzulamış və Azərbaycanın müstəqilliyini qorumağın vacibliyini bir daha diqqətə çatdırmışdı. Məhz bu uzaqgörənliyin nəticəsidir ki, zamanında əsası qoyulan Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbini və bu gün Dahi Rəhbərin adını daşıyan Heydər Əliyev adına Hərbi İnstitutu (keçmiş Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) bitirmiş pilotlarımız səmamızın keşikçiləri olaraq ölkəmizin suverenliyinin qorunmasında mühüm rol oynayırlar.

(Ardı 4-cü səhifədə)

Hərbi qulluqçumuz İtaliyada NATO kursunu müvəffəqiyyətlə başa vurub

İtaliyanın Roma şəhərində yerləşən NATO Müdafiə Kollecində 36-cı NATO Regional Əməkdaşlıq Kursunun (NRCC-36) buraxılış mərasimi keçirilib.



Müdafiə Nazirliyi xəbər verir ki, Azərbaycan Ordusunu təmsil edən ədliyyə polkovnik-leytenantı Emil Qasımov strateji səviyyəli tədris proqramını müvəffəqiyyətlə başa vuraraq diplomla təltif olunub.

Kurs müddətində peşəkarlıq və akademik fəallıq nümayiş etdirən zabitimiz strateji düşünmə, tənqidi təhlil və kollektiv qərarvermə bacarıqları ilə fərqlənib. O, müzakirələr və tapşırıqların icrasında xüsusi təşəbbüsləri ilə ölkəmizi təmsil edib.

Kollec rəhbərliyinin yekun rəyində çoxmillətli mühitdə səmərəli əməkdaşlığı və akademik müzakirələrə töhfələri vurğulanan ədliyyə polkovnik-leytenantı E.Qasımovun “NATO ilə Qafqaz regionu arasında təhlükəsizlik tərəfdaşlığı” mövzusunda hazırladığı elmi iş yüksək qiymətləndirilib.



“Hüququmuz, azadlığımız, dirçəlişimiz!”

Xalqımızın müstəqillik uğrunda mübarizəsi, hüquqi dövlət quruculuğu istiqamətində atılan addımlar və milli özünüdərk prosesi bir-birini tamamlayan tarixi mərhələlərdir. Bu baxımdan 12 Noyabr - Konstitusiya Günü və 17 Noyabr - Milli Dirçəliş Günü həm hüquqi dövlətçilik ənənələrimizin, həm də milli-azadlıq mübarizəmizin mühüm rəmzləridir.

Bu əlamətdar günlər münasibətilə Azərbaycan Hərb Tarixi Muzeyində “Keçmişdən gələcəyə: Hüququmuz, azadlığımız, dirçəlişimiz!” adlı elmi seminar keçirildi. Tədbirdə muzeyin əməkdaşları, Bakı Hərbi Kollecinin müəllimləri, kursantlar və digər iştirakçılar bir araya gələrək Azərbaycan dövlətçiliyinin tarixi, Konstitusiyamızın əhəmiyyəti və milli-dirçəliş hərəkatının ölkəmizin müstəqilliyinin bərpasındakı rolu barədə fikirlərini bölüşdülər.



Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və bir dəqiqəlik sükutla başlayan seminarda giriş sözü ilə Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Elşad Pənahov çıxış etdi. O, iştirakçıları salamlayaraq tədbirin əhəmiyyətindən danışdı, Konstitusiya Gününün və Milli Dirçəliş Gününün xalqımızın tarixində xüsusi yer tutduğunu vurğuladı. Bildirdi ki, bu tarixlər dövlət müstəqilliyimizin, milli birliyimizin və hüquqi dövlət quruculuğumuzun formalaşmasında mühüm mərhələləri əks etdirir.

(Ardı 7-ci səhifədə)

Hərbi qulluqçulara ali hərbi rütbələr təqdim edilib

Müdafiə naziri general-polkovnik Zakir Həsənov noyabrın 16-da Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən ali hərbi rütbələr verilən hərbi qulluqçularla görüşüb.

Müdafiə Nazirliyi xəbər verir ki, görüşdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına "general-leytenant" və "general-mayor" ali hərbi rütbələrinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2026-cı il tarixli Sərəncamı və müdafiə nazirinin müvafiq əmri oxunduqdan sonra zabitlərə rütbələr təqdim edilib.

General-polkovnik Zakir Həsənov Ali Baş Komandanın təbrikini hərbi qulluqçulara çatdırıb, onlara gələcək xidmətlərində uğurlar arzulayıb.

Təltif olunan zabitlər öz növbələrində göstərilən etimada görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.





Azərbaycan müdafiə naziri Gürcüstanın nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Gürcüstan Müdafiə Qüvvələri komandanı general-leytenant Giorgi Matiaşvilini və onun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.



Müdafiə Nazirliyində keçirilən görüşdə general-polkovnik Zakir Həsənov Azərbaycan və Gürcüstan arasında mövcud olan dostluq və əməkdaşlıq münasibətlərinin ordularımız arasında əlaqələrin genişləndirilməsinə və möhkəmləndirilməsinə əhəmiyyətli töhfə verdiyini qeyd edib.

Nazir hərbi əlaqələrin gələcəkdə daha da inkişaf etdirilməsinin vacibliyinə toxunub.

Müdafiə Nazirliyi xəbər verir ki, səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən general-leytenant G.Matiaşvili hərbi əlaqələrimizin genişləndirilməsində qarşılıqlı səfərlərin zəruriliyini diqqətə çatdırıb.

Görüşdə ölkələrimiz arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlığa dair qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.



Azərbaycan Ordusunun Baş Qərargah rəisi gürcüstanlı həmkarı ilə görüşüb


Noyabrın 17-də Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə rəsmi səfərdə olan Gürcüstanın Müdafiə Qüvvələri komandanı general-leytenant Giorgi Matiaşvili və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə qonaqlar Zəfər abidəsini ziyarət edərək önünə əklil qoyub, şəhidlərin əziz xatirəsini ehtiramla yad ediblər.

Baş Qərargahda təşkil edilən rəsmi qarşılanma mərasimində Azərbaycan Ordusunun Baş Qərargah rəisi və Gürcüstanın Müdafiə Qüvvələri komandanı fəxri qarovul dəstəsinin önündən keçdikdən sonra hər iki ölkənin Dövlət himnləri səsləndirilib. Protokola uyğun olaraq general-leytenant G.Matiaşvili "Şərəf kitabı"nı imzalayıb.

General-polkovnik Kərim Vəliyev gürcüstanlı həmkarı ilə əvvəlcə təkbətək, sonra isə geniş tərkibdə nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan Baş Qərargah rəisi dövlət başçılarının dostluq münasibətlərinin və ölkələrimiz arasında strateji tərəfdaşlığın olmasının müdafiə sahəsində əməkdaşlığımıza böyük töhfə verdiyini diqqətə çatdırıb.



Səmimi qəbula və qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən general-leytenant G.Matiaşvili növbəti dəfə ölkəmizə səfər etməsindən məmnun olduğunu bildirib, bu cür görüşlərin Azərbaycan ilə Gürcüstan arasında hərbi əlaqələrin daha da inkişaf etdirilməsində müstəsna rol oynadığını xüsusi vurğulayıb.

Tərəflər ölkələrimiz arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın daha da genişləndirilməsi, ikitərəfli və çoxtərəfli formatda hərbi təlim və məşqlərin keçirilməsi, ekspertlər səviyyəsində qarşılıqlı səfərlərin təşkili məsələlərini, həmçinin regionda və dünyada baş verən hərbi-siyasi prosesləri müzakirə edib, maraq doğuran bir sıra digər mövzulara dair geniş fikir mübadiləsi aparıblar.

Görüşdə həmçinin Vətən müharibəsi və sonrakı hərbi əməliyyatlar, o cümlədən lokal xarakterli antiterror tədbirləri zamanı Azərbaycan Ordusunun əldə etdiyi döyüş təcrübəsi, habelə Ali Baş Komandanın rəhbərliyi ilə həyata keçirilən hərbi islahatlar barədə qonaqlara geniş brifinq təqdim edilib, onları maraqlandıran suallar cavablandırılıb.





Vətən Müharibəsi Qəhrəmanı Zaur Nudirəliyevin anım mərasimi keçirilib





Torpaqlarımızın işğaldan azad olunması uğrunda şəhidlik zirvəsinə ucalan Vətən Müharibəsi Qəhrəmanı Nudirəliyev Zaur İsmayıl oğlunun əziz xatirəsinə həsr edilən anım mərasimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, anım mərasimində Müdafiə Nazirliyinin və Nərimanov rayon İcra Hakimiyyətinin əməkdaşları, ictimaiyyətin nümayəndələri, şəhidin ailə üzvləri və döyüş yoldaşları şəhidin məzarını ziyarət edib, önünə əklil və gül dəstələri qoyublar.

Ulu Öndər Heydər Əliyevin, eləcə də Vətən uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa edilib.

Tədbirdə Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı tarixi Qələbədən, eləcə də digər uğurlu döyüş əməliyyatlarında igid oğullarımızın göstərdikləri qəhrəmanlıq və şücaət nümunələrindən danışılıb.

Vətən Müharibəsi Qəhrəmanının ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin daim uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, həmçinin Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

İntellektual bölmələrdə yeni mərhələ: texnologiya peşəkarlarının potensialından daha geniş istifadə olunacaq

Yeni seçim meyarları müasir texnologiyalar üzrə üstün səriştəli gənclərin layihədə daha geniş və səmərəli iştirakına şərait yaradır

Azərbaycan Respublikası Müdafiə Nazirliyində yüksək intellektual potensiala malik gənclərin bilik və bacarıqlarından hərbi xidmət dövründə səmərəli istifadə olunması məqsədilə həyata keçirilən layihə yeni peşəkar inkişaf mərhələsinə keçir. Bu mərhələdə Milli Müdafiə Universitetinin intellektual bölmələrinin əhatə dairəsi genişləndirilib və yüksək akademik nəticələrlə yanaşı, informasiya texnologiyaları, kibertəhlükəsizlik, süni intellekt, robototexnika, proqramlaşdırma və digər müasir texnoloji istiqamətlər üzrə peşəkar səriştələr də seçim prosesində nəzərə alınır. Eyni zamanda, çağırışçıların elektron müraciətlərinin qəbulu üçün portal istifadəyə verilib. Yeni yanaşmanın əsas məqsədi müasir müdafiə sisteminin artan texnoloji tələbləri fonunda xüsusi bilik və səriştələrə malik gənclərin potensialını aidiyyəti fəaliyyət istiqamətləri ilə uzlaşdırmaq və onların peşəkar imkanlarından daha məqsədyönlü istifadə etməkdir.



Müdafiə Nazirliyi xəbər verir ki, intellektual bölmələr modeli çağırışçıların ixtisas profilini hərbi xidmətin real funksional ehtiyacları ilə uzlaşdırır. İnformasiya texnologiyaları, kibertəhlükəsizlik və digər əlaqəli mühəndislik sahələri üzrə üstün hazırlığa malik gənclərin, müvafiq struktur bölmələrə cəlbi onların mövcud peşəkar kompetensiyalarını xidmət dövründə praktik dəyərə çevirir. Eyni zamanda, bu yanaşma həmin kateqoriyadan olan gənclərə hərbi xidmət dövründə ixtisas üzrə təcrübə qazanmaq, yeni kompetensiyalar formalaşdırmaq və peşəkar inkişaflarını davam etdirmək imkanı verir.

Tətbiq olunan model xaricdə təhsil almış gənclər arasında hərbi xidmətə marağın artmasına, yerli ali təhsil müəssisələrinin tələbələri arasında isə yüksək akademik nəticələrə və peşəkar inkişafa yönələn sağlam rəqabət mühitinin formalaşmasına töhfə verir.

Layihə çərçivəsində formalaşmış yaxşı təcrübə, o cümlədən informasiya texnologiyaları, kibertəhlükəsizlik, süni intellekt və digər oxşar istiqamətlər üzrə yüksək hazırlıqlı mütəxəssislərə artan ehtiyac onun yeni mərhələyə keçidini şərtləndirir. Mövcud seçim meyarları saxlanılmaqla yeni peşəkar və texnoloji meyarların əlavə edilməsi xüsusi bilik, bacarıq və nailiyyətlərə malik çağırışçıların da intellektual bölmələr üzrə seçim dairəsinə daxil edilməsinə imkan yaradır.

İntellektual bölmələrdə xidmətə aşağıdakı seçim meyarlarından ən azı birinə uyğun gələn çağırışçılar cəlb oluna bilərlər:

• Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilmiş ali təhsil müəssisələrinə qəbul imtahanlarında bütün ixtisas qrupları üzrə 600 və daha yüksək bal toplamış şəxslər;

• Nazirlər Kabinetinin 2019-cu il 20 may tarixli 229 nömrəli Qərarına uyğun olaraq ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunmuş beynəlxalq və respublika fənn olimpiadaları, beynəlxalq müsabiqə və yarışların qalibləri;

• əvvəlki təqvim ilinin nəticələrinə əsasən "Times Higher Education World University Rankings" və ya "Academic Ranking of World Universities" reytinqlərində ilk 500-də yer alan xarici ali təhsil müəssisələrinin bakalavriat və ya magistratura proqramlarının məzunları;

• "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair Dövlət Proqramı" üzrə təsdiq edilmiş ali təhsil müəssisələri və təhsil proqramlarının məzunları (təhsilin Dövlət Proqramı və ya şəxsi vəsait hesabına maliyyələşdirilməsindən asılı olmayaraq);

• informasiya texnologiyaları və kibertəhlükəsizlik sahələrində "Advanced" və ya "Expert" səviyyəli nüfuzlu beynəlxalq sertifikatlardan birinə malik şəxslər (müvafiq siyahı portalın "Sənədlər" bölməsində yerləşdirilib);

• robototexnika, insansız sistemlər, süni intellekt, kibertəhlükəsizlik və digər texnoloji istiqamətlər üzrə ölkə və beynəlxalq səviyyəli olimpiada, yarış və müsabiqələrin qalibləri (müvafiq siyahı portalın "Sənədlər" bölməsində yerləşdirilib).

Müdafiə Nazirliyinin tabeliyində müddətli həqiqi hərbi xidmət keçəcək və müəyyən edilmiş seçim meyarlarına uyğun gələn çağırışçılar və ya onların ailə üzvləri Milli Müdafiə Universitetinin rəsmi internet saytının (mmu.edu.az) "İntellektual bölmələr" hissəsi vasitəsilə elektron müraciət edə bilərlər.

Vətəndaşlar ətraflı məlumatı müvafiq portalın "Sənədlər" bölməsindən əldə edə, zərurət yarandığı təqdirdə Milli Müdafiə Universitetinin Çağrı Mərkəzi - *0811 (iş günləri saat 09:00-dan 17:30-dək) ilə əlaqə saxlaya bilərlər.

Müdafiə Nazirliyinin hərbi tibb heyəti Polşaya rəsmi səfər edib



Azərbaycan ilə Polşa Müdafiə nazirlikləri arasında 2026-cı il üçün imzalanmış ikitərəfli hərbi əməkdaşlıq planına uyğun olaraq, Müdafiə Nazirliyinin Tibb İdarəsinin nümayəndə heyəti Polşada rəsmi səfərdə olub.

Polşa Milli Müdafiə Nazirliyinin Hərbi Tibb Xidməti Departamentində keçirilən görüşdə hərbi tibb sahəsində əməkdaşlığın genişləndirilməsi, birgə təlim və təhsil proqramları, elmi-tədqiqat layihələri və təcrübə mübadiləsi məsələləri müzakirə edilib.

Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində nümayəndə heyəti Varşava Hərbi Tibb İnstitutunda, Lodz Hərbi Tibb Akademiyasında və Hərbi Aviasiya Təbabəti İnstitutunda olub. Görüşlər zamanı hərbi tibb kadrlarının hazırlanması, müasir tibbi infrastruktur, ixtisasartırma proqramları və aviasiya təbabəti sahəsində əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, səfər iki ölkənin hərbi tibb sahəsində əməkdaşlığının inkişafı, qabaqcıl təcrübənin öyrənilməsi və birgə layihələrin həyata keçirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Azad edilmiş ərazilərdə daha 1459,5 hektar sahə minalardan təmizlənib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumların oktyabrın 2-15-də icra etdiyi əməliyyatlara dair məlumat yayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, hesabat dövründə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan rayonları ərazisində əməliyyatlar aparılıb. Nəticədə 152 piyada əleyhinə, 33 tank əleyhinə mina və 1343 partlamamış hərbi sursat (PHS) aşkarlanaraq zərərsizləşdirilib. Ümumilikdə 1459,5 hektar ərazi mina və PHS-dən təmizlənib.



Hərbi Hava Qüvvələrimizin pilotları - səma şahinlərimiz







(Əvvəli 1-ci səhifədə)

Həmçinin hərbi pilotlarımız öz peşəkarlığını qardaş Türkiyə, Pakistan və digər ölkələrdə keçirilən kurslar və müxtəlifmiqyaslı təlimlərdə daha da artırırlar. Bundan əlavə, Azərbaycan HHQ-nin şəxsi heyəti NATO tərəfindən təşkil olunan kurslar və məşğələlərdə öz ixtisasları üzrə bilik və bacarıqlarını dövrün tələblərinə uyğun təkmilləşdirirlər. Cari il üçün təsdiq olunmuş hazırlıq planına əsasən, Hərbi Hava Qüv-



vələrinin "N" hərbi hissəsinin tədris prosesində iştirak etdik.

Plana əsasən, növbəti uçuş günü şəxsi heyətin müəyyən olunmuş qaydada toplanması və uçuşqabağı brifinqdə iştirakı ilə başlayır. Burada qarşıda duran tapşırıqlar, uçuşun məqsədi, icra ardıcıllığı, hava şəraiti, meteoroloji göstəricilər və digər zəruri məsələlər ətrafında məruzələr komandir tərəfindən dinlənilir və suallar cavablandırılır. Hər bir pilotun diqqət yetirməli olduğu məqamlar, mümkün risklər və onların qarşısının alınması yolları bir daha nəzərdən keçirilir. Hər sahə özünəməxsus spesifikliyi ilə fərqlənir. Belə ki, meteoroloji məlumatlandırma uçuşun təhlükəsiz və səmərəli təşkili baxımından xüsusi əhəmiyyət daşıyır. Hava şəraitinin qiymətləndirilməsi, görünüş məsafəsi, küləyin istiqaməti və sürəti, atmosfer hadisələri barədə məlumatlar uçuşun planlaşdırılmasında əsas amillərdən hesab olunur. Bununla yanaşı, tibbi müayinələr vasitəsilə uçuş heyətinin sağlamlıq vəziyyəti və uçuşa yararlılığı nəzərdən keçirilir. Texniki heyət isə aviasiya vasitələrinin uçuşa hazırlığını, sistemlərin işlək vəziyyətini və müəyyən edilmiş texniki tələblərə uyğunluğunu yoxlayır. Təhlükəsizlik məsələləri də hazırlıq prosesinin ayrılmaz hissəsidir. Uçuşların təşkili zamanı müəyyən olunmuş qaydalar, qarşılıqlı fəaliyyət prinsipləri və fövqəladə hallarda görüləcək tədbirlər şəxsi heyətin diqqətinə çatdırılır. Bütün mərhələlər üzrə hazırlıq tamamlandıqdan və komandirdən müvafiq icazələr alındıqdan sonra uçuş heyəti qarşıya qoyulan tapşırıqların icrasına başlayır.

Brifinq başa çatdıqdan sonra uçuş meydanına yollanırıq. Müşahidələrimiz onu göstərir ki, uçuşa yaxınlaşdığımız hər dəqiqə hərəkətlilik daha da artır. Uçuş meydanında pilotlar aviasiya texnikasına yaxınlaşaraq son yoxlamaları həyata keçirir, texniki heyətlə qarşılıqlı əlaqədə zəruri prosedurları yerinə yetirirlər. Bir qədər sonra mühərriklərin səsi ətrafı bürüyür. Bu, sadəcə uçuşun başlanğıcı deyil, nəzəri hazırlığın, praktiki vərdişlərin və peşəkar bacarıqların sınaqdan keçirildiyi növbəti mərhələdir.

Uçuşların əsas məqsədi şəxsi heyətin hazırlıq səviyyəsini yüksəltmək, pilotların nəzəri biliklərini praktiki vərdişlərlə möhkəmləndirmək, müxtəlif şəraitlərdə düzgün qərarvermə qabiliyyətini inkişaf etdirmək və qarşıya qoyulan aviasiya tapşırıqlarını müəyyən edilmiş qaydada yerinə yetirməkdir. Bu proses pilotların fərdi hazırlığı ilə yanaşı, uçuş heyətinin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsinə də xidmət edir.

Uzunmüddətli və hərtərəfli hazırlıq prosesi başlayır. Səmada atılan hər addımın, verilən hər qərarın arxasında əvvəlcədən hesablanmış fəaliyyət, dəqiq planlaşdırma və ciddi məsuliyyət dayanır. Azərbaycan Hərbi Hava Qüvvələrinin uçuş heyəti də gündəlik fəaliyyətini məhz bu prinsiplər əsasında qurur.

Kapitan P.Quluzadə söhbət zamanı uçuşqabağı hazırlığın əhəmiyyətini belə ifadə edir: "Uçuşun uğurlu icrası və başa çatması ilk növbədə yerdə aparılan hazırlıqdan asılıdır. Hər uçuşa ciddi məsuliyyətlə yanaşırıq. Brifinq zamanı verilən məlumatlar, meteoroloji göstəricilər və texniki heyətin rəyi fəaliyyətimizin düzgün planlaşdırılmasında mühüm rol oynayır. Səmada hərəkət edərkən qəbul etdiyimiz qərarlar əvvəlcədən formalaşmış nəzəri bilik və praktiki vərdişlərə əsaslanır. Buna görə də döyüş hazırlı-





ğının daim təkmilləşdirilməsi bizim üçün vacibdir".

Növbəti müsahibim kapitan R.İsmayılov isə diqqətini peşəkar hazırlığın davamlılığına yönəldir: "Hər bir uçuş yeni təcrübə, bilik və bacarıqların möhkəmləndirilməsi deməkdir. Biz müxtəlif tapşırıqların icrası zamanı diqqətimizi, çevikliyimizi və vəziyyəti düzgün qiymətləndirmək qabiliyyətimizi inkişaf etdiririk. Pilot üçün əsas şərtlərdən biri nəzəri biliklərini praktikada uğurla tətbiq etmək, eyni zamanda, uçuş zamanı müəyyən olunmuş qaydalara və təhlükəsizlik tələblərinə ciddi riayət etməkdir. Bu sahədə üzərimizdə daim çalışır, bilik və bacarıqlarımızı daha da artırırıq".

Kapitan N.Mirzəyevlə söhbət əsnasında uçuş heyətinin kollektiv və fərdi fəaliyyətinin əhəmiyyətindən danışırıq: "Aviasiya təminatı tapşırıqlarında əldə olunan yekun nəticə həm fərdi pilotun, həm də kollektivin hazırlığından asılıdır. Burada uçuş heyətinin, texniki personalın və uçuşların təşkilində iştirak edən digər mütəxəssislərin fəaliyyəti vahid məqsədə xidmət edir. Hər kəs öz vəzifəsini dəqiq yerinə yetirdikdə ümumi fəaliyyətin səmərəliliyi artır və nəticə etibarilə qarşıya qoyulan tapşırığa nail olunur. Bizim üçün hərbi nizam-intizam, qarşılıqlı etimad və məsuliyyət peşə fəaliyyətimizin əsas prinsipləridir".

Uçuşların icrası zamanı pilotların fəaliyyəti müəyyən olunmuş tapşırıqların xarakterinə uyğun olaraq davam edir. Onlar qarşıya qoyulmuş təlim elementlərini uğurla yerinə yetirirlər. Hər bir mərhələnin nəticələri uçuşdan sonra qiymətləndirilir, qeydə alınan məqamlar təhlil olunur, zəruri hallarda növbəti hazırlıq mərhələləri üçün müvafiq tapşırıqlar müəyyənləşdirilir.

Burada diqqət çəkən digər mühüm məqam texniki heyətin fəaliyyətidir. Çünki aviasiya texnikasının etibarlılığı, onun uçuşa hazırlığı və xidmət müddətində texniki vəziyyətinə nəzarət ümumi hazırlıq sisteminin vacib tərkib hissəsi olaraq texniki heyətin üzərinə düşür. Pilotların səmada nümayiş etdirdikləri peşəkarlığın arxasında yerdə öz vəzifəsini dəqiqliklə yerinə yetirən hərbi qulluqçuların əməyi dayanır. Beləliklə, Hərbi Hava Qüvvələrinin uçuş heyətinin fəaliyyəti bir-biri ilə sıx bağlı olan çoxsaylı hazırlıq və icra mərhələlərindən ibarətdir. Burada hər bir detal, hər bir yoxlama və hər bir qərar ümumi məqsədə - aviasiya vasitələrinin daim hazırlıqlı saxlanılmasına, şəxsi heyətin peşəkarlığının artırılmasına və qarşıya qoyulan tapşırıqların uğurla yerinə yetirilməsinə xidmət edir.

Səmada görünən uçuş bir neçə dəqiqəlik və ya saatlıq fəaliyyət təsiri bağışlasa da, onun arxasında böyük zəhmət, ciddi hazırlıq və kollektiv məsuliyyət dayanır. Böyük Qələbənin qazanılmasında hərbi qulluqçularımızın yüksək vətənpərvərlik hissi, döyüş hazırlığı və peşəkarlığı əsas rol oynadı. Bu gün ordumuzun



hər sahəsi kimi, Hərbi Hava Qüvvələri də müasir döyüş vasitələri və texniki avadanlıqlarla təchiz olunub. Hərbçilərimiz ölkə daxilində və onun hüdudlarından kənarda arsenalımıza yeni daxil olan hərbi texnikaların incəliklərini öyrənir və peşəkarlaşırlar. Azərbaycan hərbi aviasiyasının gücü də məhz bu peşəkarlığın, intizamın və daim təkmilləşən hazırlıq sisteminin vəhdətində təzahür edir.

Hərbi Hava Qüvvələrimiz qısamüddətli zaman kəsiyində inkişaf edərək, unudulmaz döyüş yolu keçərək, İkinci Qarabağ müharibəsində qazanılan Böyük Zəfərin qazanılmasında mühüm pay sahibi oldu. O zaman səmalarda tarix yazan pilotlarımızın bugünkü varisləri də onların açdığı buludların arasında süzülərək, hava hüdudlarımızı layiqincə qoruyurlar.

Kapitan
Fuad CƏFƏROV
"Azərbaycan Ordusu"

Milli oyanışdan müstəqil dövlətçiliyə doğru

Azərbaycan xalqının tarixində elə günlər var ki, onların əhəmiyyəti yalnız baş verdiyi dövrlə məhdudlaşmır. Belə günlər xalqın yaddaşında milli iradənin, azadlıq istəyinin və dövlətçilik düşüncəsinin təcəssümü kimi yaşayır. 17 Noyabr - Milli Dirçəliş Günü də məhz bu baxımdan tariximizin mühüm səhifələrindən biridir. Bu tarix Azərbaycan xalqının öz taleyinə sahib çıxmaq, milli hüquqlarını qorumaq və müstəqil dövlət qurmaq əzmini nümayiş etdirdiyi böyük bir xalq hərəkatının başlanğıcı ilə bağlıdır.

XX əsrin 80-ci illərinin sonlarında Sovet İttifaqında ictimai-siyasi vəziyyət getdikcə mürəkkəbləşirdi. Uzun illər vahid dövlətin tərkibində yaşayan respublikalarda milli məsələlər yenidən gündəmə gəlir, xalqlar öz hüquqlarının tanınmasını və gələcəklərini sərbəst müəyyənləşdirmək imkanının yaradılmasını tələb edirdilər. Sovet rəhbərliyinin elan etdiyi yenidənqurma və aşkarlıq siyasəti isə mövcud problemlərin həllinə deyil, bir çox hallarda onların daha aydın görünməsinə səbəb olurdu.

Həmin dövrdə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları, Dağlıq Qarabağ ətrafında baş verən hadisələr və sovet rəhbərliyinin bu məsələlərə münasibəti Azərbaycan cəmiyyətində ciddi narazılıq yaratmışdı. Xalq öz doğma torpaqlarının taleyinə biganə qala bilməzdi. İnsanlar baş verənlərə etiraz edir, Azərbaycanın ərazi bütövlüyünün qorunmasını və milli hüquqlarına hörmətlə yanaşılmasını tələb edirdilər. Artıq narazılıq ayrı-ayrı insanların mövqeyi olmaqdan çıxaraq ümumxalq hərəkatına çevrilirdi.

1988-ci ilin noyabrında Qarabağda Topxana meşəsinin qırılması ilə bağlı yayılan məlumatlar da cəmiyyətdə böyük narahatlıq doğurdu. Hadisəyə etiraz edən insanlar Bakının mərkəzində, o vaxt Lenin meydanı (indiki Azadlıq meydanı) adlanan ərazidə toplaşmağa başladılar. Noyabrın 17-də burada fasiləsiz davam edən kütləvi mitinqin əsası qoyuldu. Sonralar tarixə "Meydan hərəkatı" kimi daxil olan bu hadisə Azərbaycanın milli-azadlıq mübarizəsində yeni mərhələnin başlanğıcı oldu.

Meydanı dolduran insanların arasında müxtəlif yaşlarda, müxtəlif peşələrdə çalışan və ölkənin ayrı-ayrı bölgələrindən gələn vətəndaşlar var idi. Onları birləşdirən əsas məqsəd Azərbaycanın haqq səsinin eşidilməsi, Qarabağ ətrafında yaranmış təhlükənin aradan qaldırılması və xalqın hüquqlarının müdafiəsi idi. İnsanlar öz etirazlarını açıq şəkildə bildirir, milli maraqların qorunmasını tələb edirdilər.

Meydan hərəkatının ən mühüm xüsusiyyətlərindən biri xalqın birliyini nümayiş etdirməsi idi. Müxtəlif sosial təbəqələrə mənsub insanlar eyni məqsəd ətrafında birləşmişdilər. Bu birlik cəmiyyətdə milli özünüdərkin güclənməsinə, insanların öz tarixlərinə, dilinə, mədəniyyətinə və dövlətçilik ənənələrinə marağının artmasına təkan verirdi. Uzun müddət sovet ideologiyasının təsiri altında olan cəmiyyətdə milli kimlik və müstəqil dövlətçilik məsələləri daha açıq müzakirə olunmağa başlamışdı.

Sovet rəhbərliyi isə meydanda yaranmış ümumxalq hərəkatına təzyiq göstərmək yolunu seçdi. Noyabrın 22-də Bakıda komendant saatı tətbiq edildi, şəhərə əlavə sovet qoşunları gətirildi. Lakin bu tədbirlər insanların etirazını dayandıra bilmədi. Mitinq dekabrın əvvəlinədək davam etdi. Dekabrın 5-nə keçən gecə sovet qoşunları zirehli texnika tətbiq etməklə meydandakı insanları zor gücünə dağıtdı.

Meydanın boşaldılması xalqın azadlıq istəyini aradan qaldırmadı. Əksinə, həmin günlərdə baş verənlər cəmiyyətdə müstəqilliyin zəruriliyi barədə düşüncələri daha da gücləndirdi. İnsanlar anladılar ki, milli hüquqların, ərazi bütövlüyünün və gələcəyin etibarlı təminatı üçün öz



dövlətinin taleyinə özü qərar verməlidir. Beləliklə, 1988-ci ilin noyabrında başlanan hadisələr təkcə etiraz mitinqi kimi deyil, Azərbaycanın müstəqilliyə doğru hərəkatında mühüm tarixi mərhələ kimi yadda qaldı.

Bu hərəkatın əhəmiyyəti sonrakı illərdə baş verən hadisələr fonunda daha aydın görünür. 1989-cu ildə Azərbaycanda milli-azadlıq mübarizəsi daha geniş miqyas aldı. Xalqın siyasi fəallığı artdı, milli dövlətçilik ideyası ictimai düşüncədə möhkəmləndi. İnsanlar artıq yalnız mövcud problemlərin həllini deyil, Azərbaycanın gələcək siyasi taleyinin müstəqil şəkildə müəyyənləşdirilməsini istəyirdilər.

Bu hadisələr bir daha göstərdi ki, 1988-ci ilin noyabrında başlayan xalq hərəkatı ölkənin gələcək siyasi həyatına ciddi təsir göstərmişdi. Meydanlarda səslənən azadlıq çağırışları, milli birliyin güclənməsi və dövlətçilik düşüncəsinin inkişafı müstəqilliyə aparan prosesin mühüm tərkib hissəsinə çevrilmişdi. Əlbəttə, müstəqilliyin bərpası yalnız bir hadisənin nəticəsi deyildi. Bu, xalqımızın uzun illər ərzində apardığı mübarizənin, tarixi dövlətçilik ənənələrinin və milli iradəsinin nəticəsi idi. 17 Noyabr isə həmin mübarizənin yaddaşlarda xüsusi yer tutan başlanğıc mərhələlərindən biri oldu.

1992-ci il oktyabrın 27-də qəbul edilmiş qanunla 17 Noyabr - Milli Dirçəliş Günü elan edildi. Bununla da xalqımızın azadlıq mübarizəsində mühüm yer tutan həmin tarixi hadisəyə dövlət səviyyəsində hüquqi qiymət verildi. Hər il qeyd olunan bu gün Azərbaycanın müstəqillik tarixini, xalqın milli birliyini və azadlıq uğrunda mübarizəsini xatırladır.

Milli Dirçəliş Gününün əhəmiyyəti yalnız keçmiş hadisələri yada salmaqla bitmir. Bu tarix müstəqilliyin necə böyük çətinliklər hesabına əldə olunduğunu və dövlətçiliyin qorunmasının nə qədər vacib olduğunu xatırladır. Çünki müstəqil dövlətə sahib olmaq qədər onun suverenliyini, ərazi bütövlüyünü və təhlükəsizliyini qorumaq da mühüm vəzifədir. Bu vəzifənin yerinə yetirilməsində güclü ordu, milli birlik və vətəndaş məsuliyyəti xüsusi əhəmiyyət daşıyır.

Azərbaycanın müasir tarixində bu həqiqət 2020-ci ildə Vətən müharibəsi zamanı bir daha təsdiqini tapdı. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 günlük müharibədə torpaqlarımızın böyük hissəsini işğaldan azad etdi. 2023-cü ilin sentyabrında həyata keçirilən antiterror əməliyyatı nəticəsində ölkəmizin suverenliyi bütün ərazisində bərpa olundu. Beləliklə, xalqımızın uzun illər gözlədiyi tarixi ədalət təmin edildi.

Bu zəfərlər təkcə hərbi uğur deyil, həm də milli iradənin, dövlətçilik əzminin və xalq-ordu birliyinin təntənəsi idi. Bir vaxtlar Azadlıq meydanında Azərbaycanın haqq səsini ucaltmaq üçün bir araya gələn xalqın övladları illər sonra Vətənin müdafiəsi uğrunda çiyin-çiyinə döyüşərək öz tarixlərini yazdılar. Bu iki tarixi mərhələni birləşdirən əsas amil Azərbaycanın azadlığına, müstəqilliyinə və ərazi bütövlüyünə olan sarsılmaz bağlılıqdır.

Bu gün Azərbaycan Ordusu dövlətimizin təhlükəsizliyinin və suverenliyinin etibarlı təminatçısıdır. Müasir silah və texnika ilə təchiz olunan, peşəkar kadr potensialına malik olan ordumuz qarşıya qoyulan vəzifələri yüksək məsuliyyətlə yerinə yetirir. Hərbi qulluqçularımızın Vətənə sədaqəti, döyüş hazırlığı və peşəkarlığı müstəqil Azərbaycanın gücünü nümayiş etdirir. Ordunun qüdrəti isə yalnız texniki imkanlarla ölçülmür. Bu qüdrətin əsasını Vətən sevgisi, milli-mənəvi dəyərlərə bağlılıq, intizam və xalqın dəstəyi təşkil edir.

Milli Dirçəliş Günü gənc nəsil üçün də mühüm tarixi dərsdir. Bu günün mahiyyətini anlamaq üçün 1988-ci ilin hadisələrini, xalqımızın hansı çətinliklərlə üzləşdiyini və müstəqillik uğrunda hansı mübarizəni apardığını bilmək lazımdır. Tarixini tanıyan, dövlətinin keçdiyi yolu dərk edən gənc öz məsuliyyətini daha yaxşı anlayır. Vətənin müdafiəsinə hazır olmaq, dövlət rəmzlərinə hörmət etmək, milli dəyərləri qorumaq və ölkənin inkişafına töhfə vermək hər bir vətəndaşın borcudur.

Bu baxımdan hərbi qulluqçuların milli tariximizi dərindən öyrənməsi, dövlətçilik ənənələrimizə hörmətlə yanaşması xüsusi əhəmiyyət daşıyır. Çünki Vətənin müdafiəsi yalnız sərhədlərin qorunması ilə məhdudlaşmır. Bu, həm də xalqın tarixini, dilini, mədəniyyətini və müstəqil yaşamaq hüququnu qorumaq deməkdir. Milli ruhu güclü olan, keçmişindən nəticə çıxaran və gələcəyə inamla baxan xalq qarşısına qoyduğu məqsədlərə daha əmin addımlarla irəliləyir.

17 Noyabr xalqımızın tarixində milli oyanışın, birlik və azadlıq istəyinin rəmzi kimi yaşayır. Həmin günün əsas mesajı bu gün də öz aktuallığını qoruyur: dövlətin gücü onun xalqının birliyindən, milli iradəsindən və müstəqilliyinə sahib çıxmaq əzmindən qaynaqlanır. Azərbaycan xalqı bu əzmi tarixinin müxtəlif mərhələlərində nümayiş etdirib. Bu gün isə müstəqil, suveren və qalib dövlət kimi gələcəyə doğru inamla addımlayır.

Milli Dirçəliş Günü bizə bir daha xatırladır ki, müstəqillik böyük tarixi dəyərdir. Onu qorumaq, möhkəmləndirmək və gələcək nəsillərə etibarlı şəkildə ötürmək hər birimizin məsuliyyətidir. Xalqımızın azadlıq mübarizəsindən doğan bu əlamətdar gün milli yaddaşımızda daim yaşayacaq, Vətənə bağlılıq və dövlətçilik düşüncəsinin güclənməsinə xidmət edəcəkdir.

Hüsniyyə NƏSİROVA
"Azərbaycan Ordusu"

17 Noyabr - Dövlətimiz və xalqımız tərəfindən hər il Milli Dirçəliş Günü kimi bayram edilir. 1988-ci ilin 17 noyabr tarixində paytaxt Bakımızın "Azadlıq" meydanında xalqımızın uzunmüddətli mitinqləri başladı. Xalq kütlələri meydana toplaşaraq Sovetlər birliyinin anti-Azərbaycan siyasətinə qarşı çıxdı. Dekabrın əvvəllərində mitinqlər SSRİ-nin Azərbaycanda yerləşən daxili qoşunları tərəfindən dağıdılsa da, xalqımızın milli-azadlıq hərəkatının qarşısı alına bilmədi.

1989-cu ilin sentyabrında Ali Sovetin Azərbaycanın suverenliyi haqqında Konstitusiya Aktını qəbul etməsi SSRİ-ni daha da qıcıqlandırdı və 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə Bakıya qoşun yeridildi. Mitinq iştirakçılarına - dinc, əliyalın xalqa qarşı ağır texnika və odlu silahdan istifadə edildi, insanlar qanlarına qəltan oldular. Amma bu qanlı hadisə xalqımızın milli qürurunu, milli mənliyini sındıra bilmədi. Əksinə, azadlıq hərəkatını daha da sürətləndirdi.

1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyinin bərpa edildiyi elan olundu. Qısa müddət ərzində ölkənin müstəqilliyinə real təhlükə olan SSRİ-nin 4-cü ordusu Azərbaycandan çıxarıldı.

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin yeni tərkibdə ilk sessiyası keçirildi. Muxtar respublikanın adından "sovet" və "sosialist" sözlərinin çıxarılması müstəqilliyimizin qazanılması yolunda çox böyük tarixi bir addım idi. Bununla Ümummilli Lider Heydər Əliyev milli dövlətimizin dirçəlişi istiqamətində ilk böyük addım atdı. Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada Muxtar Respublikanın dövlət rəmzləri haqqında məsələdə müzakirə olundu. Xalq deputatlarının müzakirəsindən sonra üçrəngli bayrağın dövlət rəmzi kimi qəbulu ilə əlaqədar təklif irəli sürüldü. Azərbaycan Xalq Cümhuriyyətinin üç rəngli bayrağının bərpa olunması barədə qərar çıxaran sessiya onun Dövlət Bayrağı kimi qəbul edilməsi ilə əlaqədar Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırdı. Beləliklə, milli dirçəlişdən milli tərəqqiyə doğru uzanan tarixi yolun başlanğıcı qoyuldu. Azərbaycan yenidən öz müstəqilliyinə qovuşdu. 17 Noyabr isə xalqımızın milli-azadlıq hərəkatının başlanğıc günü - Milli Dirçəliş Günü kimi qeyd olunmağa başladı.

2020-ci ilin sentyabrın 27-dən başlayaraq Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum əməliyyatları nəticəsində uzun illər düşmən işğalında olan tarixi torpaqlarımız azad edildi.

2023-cü il 19-20 sentyabr tarixlərində üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə antiterror əməliyyatı başlanıldı.

23 saat davam edən əməliyyat çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin qalıqlarının ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarıldı. Düşmən ağ bayraq qaldıraraq təslim oldu. Bununla da Azərbaycanın bütün ərazilərində Konstitusiya quruluşu bərpa edildi.

Artıq altı ildir ki, 17 Noyabr - Milli Dirçəliş Günü respublikamızın ərazi bütövlüyünün və suverenliyinin tam təmin olunması şəraitində qeyd edilir.

Hazırda azad olunmuş bütün ərazilərimiz dirçəlir, Qarabağa və Şərqi Zəngəzura həyat qayıdır.

Lalə HÜSEYNOVA
"Azərbaycan Ordusu"

Milli Dirçəliş Günü münasibətilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib







17 Noyabr - Milli Dirçəliş Günü münasibətilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, tədbirlərdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa edilib.

Çıxış edənlər xalqımızın azadlıq mübarizəsinin əsas mərhələlərindən olan 17 Noyabr - Milli Dirçəliş Gününün ölkəmizin müstəqilliyinin bərpa edilməsindəki tarixi rolundan, Ulu Öndərin uzaqgörənliyi, müdrik siyasəti, onun milli dirçəlişi və mənəvi dəyərləri yüksək tutmasından, həmçinin Heydər Əliyev siyasi kursunun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən danışıblar.

Həmçinin 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin yeni tərkibdə keçirdiyi sessiyada Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının bərpa olunmasının milli dirçəlişdən milli tərəqqiyə doğru uzanan tarixi yolun başlanğıcı olması vurğulanıb.


Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində torpaqlarımızı işğaldan azad etməsi nəticəsində bu gün 17 Noyabr - Milli Dirçəliş Gününün Vətənimizin hər yerində xalqımız tərəfindən bayram edilməsi böyük qürur və iftixar hissi ilə qeyd olunub.

Tədbirlər çərçivəsində təqdim edilən musiqi nömrələri, mədəni-kütləvi və digər tədbirlər şəxsi heyət tərəfindən böyük maraqla qarşılanıb.

Heydər Əliyev adına Hərbi İnstitutda qanvermə aksiyası keçirilib

Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitutda Respublika Qan Bankının təşkilatçılığı ilə qanvermə aksiyası keçirilib.





Müdafiə Nazirliyi xəbər verir ki, tədbirdə institutun 90 nəfərədək heyəti iştirak edib. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində Respublika Qan Bankının tibb briqadası donorların sağlamlıqlarını yoxladıqdan sonra onlardan qan götürüb.

Götürülən qan nümunələri müayinə edildikdən sonra sertifikatlaşdırılaraq qan ehtiyatların artırılması və ehtiyacı olan insanların müalicəsində istifadə olunması üçün təhvil verilib.

Tədbirin əsas məqsədi cəmiyyətdə və orduda könüllü və təmənnasız qan donorluğu ənənələrinin qorunub saxlanması, donor fəaliyyətinin əhəmiyyətinin təbliği və cəmiyyətdə humanizm dəyərlərinin təşviqidir.

Litva Hərbi Akademiyasının nümayəndə heyəti ölkəmizə səfər edib

Azərbaycan və Litva müdafiə nazirlikləri arasında 2026-cı il üçün imzalanmış ikitərəfli hərbi əməkdaşlıq planına uyğun olaraq, Litva Respublikasının General Yonas Jemaytis adına Hərbi Akademiyasının nümayəndə heyəti ölkəmizə səfər edib.



Akademiyada təşkil olunan "Vytautas Magnus Quru Qoşunları Komandir-Qərargah kursu"nda Litva ilə yanaşı, Azərbaycan, Moldova və Ukrayna silahlı qüvvələrinin hərbi qulluqçuları təhsil alır.

Müdafiə Nazirliyi xəbər verir ki, səfərin əsas məqsədi kursdinləyicilərini Vətən müharibəsində icra olunan əməliyyatlar barədə məlumatlandırmaq, onları əməliyyatın taktiki və strateji nəticələri, eləcə də müharibədən çıxarılan hərbi dərslərlə tanış etməkdir.

Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Hərbi İdarəetmə İnstitutunda olan nümayəndə heyətinə institutun təhsil imkanları, zabit heyətinin hazırlanması sistemi və tətbiq olunan təhsil konsepsiyası barədə ətraflı məlumat verilib.

Səfər çərçivəsində Azərbaycan Hərb Tarixi Muzeyini ziyarət edən qonaqlar Azərbaycanın hərb tarixi, Vətən uğrunda canından keçmiş şəhidlərimizin qəhrəmanlıq yolu ilə tanış olublar.

Qeyd edək ki, səfər ölkələrimiz arasında hərbi təhsil sahəsində təcrübə mübadiləsi baxımından mühüm əhəmiyyət daşıyır.

Hərbi vəzifəlilərlə növbəti təlim toplanışı keçirilir



Cari ilin hazırlıq planına əsasən, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə tədbirlər çərçivəsində Quru Qoşunlarının "N" hərbi hissəsində bir qrup hərbi vəzifəlinin cəlb olunması ilə növbəti təlim toplanışı keçirilir.

Müdafiə Nazirliyi xəbər verir ki, səfərbərlik tədbirlərinin yerinə yetirilməsi ardıcıllığına uyğun olaraq təlimə cəlb olunanlar hərbi uçot ixtisası üzrə bölüşdürülüb, bütün növ təminatlarla təmin edilib.

Toplanış çərçivəsində günün nizam qaydalarına uyğun fəaliyyətlər icra olunub, o cümlədən onlarla maarifləndirici söhbətlər aparılıb, Hərbi Nizamnamələrin, hərbi qanunvericiliyin tələbləri və təhlükəsizlik qaydaları çatdırılıb.

İştirakçılarla sıra, nizamnamə, ictimai-siyasi və ixtisas hazırlıqları üzrə məşğələlər keçirilib, həmçinin praktiki atış çalışması yerinə yetirilib.



Qeyd edək ki, toplanışın əsas məqsədi hərbi vəzifəlilərin praktiki vərdişlərinin təkmilləşdirilməsi, bilik və bacarıqlarının inkişaf etdirilməsi, eləcə də onların yeni hərbi biliklər əldə etmələridir.

“Hüququmuz, azadlığımız, dirçəlişimiz!”



(Əvvəli 1-ci səhifədə)

Daha sonra muzeyin tədqiqatçı baş elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent, professor Hacı Həsənov “Keçmişdən gələcəyə: Hüququmuz, azadlığımız, dirçəlişimiz” mövzusunda məruzə ilə çıxış etdi. Məruzədə Azərbaycan xalqının dövlətçilik tarixindən, milli azadlıq mübarizəsindən, Konstitusiyamızın qəbuluna aparan tarixi proseslərdən və müstəqil dövlət quruculuğunun əsas mərhələlərindən bəhs olundu. Qeyd edildi ki, dövlətçilik ənənələrinin qorunması, hüquqi əsasların möhkəmləndirilməsi və milli dəyərlərə bağlılıq Azərbaycanın gələcək inkişafının vacib şərtlərindəndir.

Seminar çərçivəsində Konstitusiya Günü və Milli Dirçəliş Gününə həsr olunmuş qısametrajlı sənədli filmlər nümayiş etdirildi. Filmdə xalqımızın milli-azadlıq hərəkatının mühüm hadisələri, həmin dövrdə baş verən ictimai-siyasi proseslər və müstəqillik arzusu ilə bir araya gələn insanların mübarizəsi əks olundu.

Çıxışlar zamanı Bakı Hərbi Kollecinin müəllimləri Ülkər Şeləmənova və Orxan Məmmədli mövzular ətrafında fikirlərini geniş şəkildə bölüşdülər.

Ülkər Şeləmənova “Konstitusiya: ədalətli cəmiyyətə aparan yol” mövzusunda çıxışında Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinə qədər keçilən tarixi yola və onun müstəqil dövlət quruculuğundakı roluna diqqət çəkdi. Bildirdi ki, Azərbaycan xalqının dövlətçilik ənənələri qədim tarixə malik olsa da, müstəqil dövlətin hüquqi əsaslarının formalaşdırılması ölkəmizin müasir tarixində mühüm mərhələ təşkil edir.

Məruzəçi qeyd etdi ki, Azərbaycan Xalq Cümhuriyyəti 1918-1920-ci illərdə mövcud olduğu 23 ay ərzində dövlətin Əsas Qanununu qəbul edə bilmədi. Ölkəmizin konstitusiya quruluşunun tarixi əsasən sovet dövrünə təsadüf edirdi. Azərbaycanın ilk Konstitusiyası 1921-ci il mayın 19-da qəbul olundu. Lakin dövlət müstəqilliyinin bərpasından sonra müstəqil Azərbaycanın öz hüquqi əsaslarını müəyyən edən yeni Konstitusiyanın hazırlanması zərurəti yarandı.

Ülkər Şeləmənova vurğuladı ki, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə yaradılmış xüsusi komissiya tərəfindən hazırlanan Konstitusiya layihəsi ümumxalq müzakirəsinə təqdim edildi. Nəhayət, 1995-ci il noyabrın 12-də keçirilən referendumda müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olundu, həmin il noyabrın 27-də qüvvəyə mindi. Bu sənəd ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun əsasını qoydu.

O, çıxışında Vətənin müdafiəsinin hər bir vətəndaşın borcu olduğunu xüsusi qeyd etdi. Bildirdi ki, Azərbaycan Ordusunun qazandığı tarixi Zəfər və 2023-cü ildə həyata keçirilən antiterror əməliyyatı nəticəsində suverenliyimizin tam bərpası dövlətçiliyimizin əsas prinsiplərinin təntənəsidir.



Bakı Hərbi Kollecinin müəllimi Orxan Məmmədli isə “17 noyabr - bir millətin oyanışı, bir xalqın azadlıq səsi!” mövzusunda çıxış edərək Milli Dirçəliş Gününün yaranma tarixindən, xalqımızın azadlıq mübarizəsindən və həmin dövrdə baş verən ictimai-siyasi hadisələrdən danışdı.



O bildirdi ki, 17 Noyabr - Milli Dirçəliş Günü Azərbaycan xalqının milli özünüdərkinin güclənməsində, müstəqillik ideyasının ümumxalq istəyinə çevrilməsində mühüm rol oynayırdı. Ötən əsrin 80-ci illərinin sonlarında Sovet İttifaqında dərinləşən siyasi və iqtisadi böhran, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları, Ermənistanla Azərbaycan arasında mövcud olmuş münaqişə ətrafında baş verən hadisələr xalqımızın haqlı narazılığını daha da artırdı. Ermənilərin Topxana meşəsində törətdiyi hadisələr və Ağdamda iki azərbaycanlının qətlə yetirilməsi cəmiyyətdə ciddi etirazlara səbəb oldu.

Məruzəçi 1988-ci il noyabrın 17-də Bakının əsas meydanlarından olan Azadlıq meydanında başlanan kütləvi mitinqlərin qısa müddətdə ümumxalq hərəkatına çevrildiyini qeyd etdi. Əvvəlcə Azərbaycanın ərazi bütövlüyünün qorunması, erməni separatizminə son qoyulması və xalqın hüquqlarının müdafiəsi tələbləri ilə başlayan aksiyalarda sonralar müstəqillik şüarları da əsas yer tuturdu. Meydanlara toplaşan yüz minlərlə insan öz iradəsini, milli birliyini və azadlıq istəyini nümayiş etdirirdi.

Orxan Məmmədli vurğuladı ki, 18 gün davam edən mitinqlərdə bir milyona yaxın insan iştirak edirdi. Bu hadisələr keçmiş Sovet İttifaqının tarixində ən genişmiqyaslı kütləvi çıxışlardan biri kimi yadda qalıb. Sovet rəhbərliyinin xalq hərəkatını dayandırmaq cəhdlərinə, Bakıya qoşun yeridilməsinə baxmayaraq, Azərbaycan xalqı öz mübarizəsindən geri çəkilmirdi.

Çıxışda Ümummilli Lider Heydər Əliyevin milli dirçəliş prosesindəki xidmətləri də xüsusi vurğulandı. Qeyd edildi ki, Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi illərdə milli-mənəvi dəyərlərin, elmin və mədəniyyətin inkişafına göstərilən diqqət xalqın milli özünüdərk hissinin güclənməsində mühüm rol oynadı. Onun uzaqgörən siyasəti nəticəsində formalaşan mənəvi və iqtisadi potensial müstəqilliyin bərpası ərəfəsində xalqımızın əsas dayaqlarından birinə çevrildi.

Seminarın sonunda mövzular ətrafında müzakirələr aparılaraq iştirakçıları maraqlandıran suallar cavablandırıldı. Tədbirin bədii hissəsində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin ifasında hərbi vətənpərvərlik mahnıları səsləndirildi.

Hüsniyyə NƏSİROVA
“Azərbaycan Ordusu”

“Zəfərin rəngləri” adlı layihə çərçivəsində tədbir keçirilib

Naxçıvan Qaziləri İctimai Birliyinin təşəbbüsü, “Naxçıvan Şəhid Ailələri” İctimai Birliyi və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə şəhid ailələrinin üzvləri, döyüş iştirakçısı olmuş veteranlar, ictimaiyyət nümayəndələri, rəssamlar və gənc istedadlar iştirak ediblər.







Tədbirdə çıxış edən Naxçıvan Qaziləri İctimai Birliyinin sədri Əli Əlisoy layihənin əhəmiyyətindən danışaraq bildirib ki, “Zəfərin rəngləri” şəhidlərin əziz xatirəsinin yaşadılması, döyüşlərdə sağlamlığını itirmiş soydaşlarımızın igidliklərini və Zəfər tariximizi incəsənət vasitəsilə gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıyır. O, bu cür təşəbbüslərin xüsusilə gənclərin vətənpərvərlik ruhunda formalaşmasına töhfə verdiyini vurğulayıb.

Daha sonra “Naxçıvan Şəhid Ailələri” İctimai Birliyinin sədri Mais Gülməmmədov çıxış edərək “Zəfərin rəngləri” layihəsinin şəhidlərin əziz xatirəsinin yaşadılması və onların qəhrəmanlıq tarixinin sənət əsərləri vasitəsilə gələcək nəsillərə çatdırılması baxımından əhəmiyyətini vurğulayıb. O, gənc rəssamların bu mövzuya müraciət etməsinin və milli-mənəvi dəyərlərimizin sənət vasitəsilə təbliğinin təqdirəlayiq təşəbbüs olduğunu bildirib.

Ardınca “Naxçıvan Şəhid Ailələri” İctimai Birliyinin təsisçisi, Ali Məclisin deputatı Üzeyir Məmmədov çıxış edərək belə layihələrin şəhid ailələri, müharibə veteranları və bütövlükdə cəmiyyət arasında mənəvi bağların möhkəmləndirilməsinə xidmət etdiyini qeyd edib. O, şəhidlərin qəhrəmanlıq salnaməsinin yalnız sözlə deyil, rənglərin və sənətin dili ilə də yaşadılmasının xüsusi əhəmiyyət daşıdığını bildirib.

Sonra Naxçıvan Qaziləri İctimai Birliyinin Veteranlar Şurasının sədri Məlik Cəbiyev layihənin milli-mənəvi dəyərlərimizin qorunması və Zəfər tariximizin təbliği baxımından əhəmiyyətindən danışıb.

Tədbirdə iştirak edən digər şəhid valideynləri də çıxış edərək qəhrəmanların xatirəsinin yaşadılmasının, onların döyüş yolunun incəsənət vasitəsilə təbliğinin vacibliyini qeyd ediblər.



Sonra iştirakçılar Rəssamlar Birliyinin binasında, ikinci mərtəbədə yerləşən Zəfər guşəsində təşkil olunan sərgi ilə tanış olublar. Burada gənc rəssamların Vətən müharibəsinə, şəhidlərin qəhrəmanlığına, Zəfər tarixinə və milli dəyərlərimizə həsr olunmuş əsərləri nümayiş etdirilib.

Münsiflər heyətinin qiymətləndirməsinə əsasən, yağlı boya və qrafika üzrə müxtəlif nominasiyalarda qaliblər müəyyənləşdirilib.

Yağlı boya üzrə Ülkər Əliyeva I yerə, Murad Qasımlı, Fatimə Niftəlizadə və Dərya Əhmədli II yerə, Məhəbbət Əlirzayeva, Aysu Hüseynzadə, Arzu Dadaşova və Həcər Fərzəliyeva III yerə layiq görülüblər. Nuray Haqverdiyeva və Ülviyyə Şirəliyeva isə həvəsləndirici mükafatla təltif olunublar.

Qrafika üzrə Murad Qasımlı I, Nəcibə Mustafayeva II, Rəvan Əliyev isə III yerin qalibi olub.

Sonda qaliblərə müvafiq mükafatlar təqdim edilib.

Bəxtiyar ƏLİYEV
“Naxçıvan Şəhid Ailələri”
İctimai Birliyinin mətbuat katibi

Hərbi terminlər

Zirehli Transportyor və Piyadanın Döyüş Maşını: oxşar və fərqli cəhətlər

Hərbi texnikanın inkişafı qoşunların döyüş imkanlarının genişləndirilməsində, şəxsi heyətin təhlükəsizliyinin təmin olunmasında və əməliyyatların çevikliyinin artırılmasında mühüm rol oynayır. Müasir döyüş şəraitində yalnız silahlanmanın gücü deyil, hərbi bölmələrin vaxtında və təhlükəsiz şəkildə tələb olunan istiqamətə çatdırılması da xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan transportyorlar quru qoşunlarının istifadə etdiyi mühüm texnika vasitələrindən biri hesab olunur.



Transportyor sözü hərfi mənada daşıyıcı anlayışını ifadə edir. Hərbi terminologiyada isə bu anlayış şəxsi heyətin, silahların, sursatın və digər hərbi təyinatlı yüklərin daşınması üçün nəzərdə tutulan vasitələrlə əlaqələndirilir. Zirehli transportyor (ZTR) həmin vasitələrin xüsusi növü olmaqla, ilk növbədə motoatıcı bölmələrin şəxsi heyətini döyüş zonasına çatdırmaq, hərəkət zamanı onları müəyyən səviyyədə qorumaq və bölmələrin mobilliyini təmin etmək məqsədi daşıyan zirehli hərbi maşındır. Bu texnikanın əsas təyinatı şəxsi heyətin döyüş meydanında hərəkət imkanlarını genişləndirməkdir. Zirehli transportyor əsgərlərin bir mövqedən digərinə daşınmasını asanlaşdırmaqla yanaşı, döyüş tapşırıqlarının icrası zamanı bölmələrin çevikliyini artırır. Onun mühafizə imkanları şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Müxtəlif konstruksiyalı variantlar silah sistemləri ilə təchiz edilərək özünümüdafiə və atəş dəstəyi imkanlarına da malik olur.

Konstruktiv xüsusiyyətlərinə görə zirehli transportyorlar təkərli və tırtıllı olmaqla iki əsas qrupa ayrılır. Təkərli modellər, bir qayda olaraq, yollar üzərində yüksək hərəkət sürəti, manevr imkanları və istismar rahatlığı ilə seçilir. Tırtıllı variantlar isə yumşaq torpaq, palçıq və digər mürəkkəb relyef şəraitində hərəkət qabiliyyəti ilə fərqlənir. Bununla belə, konkret texnikanın keçid imkanları onun mühərrikindən, hərəkət hissəsindən, kütləsindən və konstruktiv xüsusiyyətlərindən asılıdır. Bəzi modellər su maneələrini keçmək üçün amfibiya imkanlarına da malik olur.

Zirehli transportyorun quruluşu onun təyinatına uyğun formalaşdırılır. Korpus, mühərrik, transmissiya, hərəkət hissəsi, idarəetmə mexanizmləri, rabitə avadanlığı və silah sistemi əsas konstruktiv elementlər sırasındadır. Korpus şəxsi heyətin yerləşdirilməsi və mühafizəsi üçün nəzərdə tutulur. Mühərrik və transmissiya texnikanın hərəkətini təmin edir, idarəetmə mexanizmləri isə sürücüyə maşını müxtəlif şəraitlərdə idarə etmək imkanı yaradır. Rabitə vasitələri ekipajın və bölmənin qarşılıqlı əlaqəsinin təşkilində mühüm əhəmiyyət daşıyır.

Mühafizə səviyyəsi zirehli transportyorların əsas göstəricilərindən biridir. Zirehli korpusun konstruksiyası və tətbiq edilən qoruyucu materiallar ekipajı və daşınan şəxsi heyəti müəyyən təhlükələrdən, o cümlədən atıcı silahların güllələrindən və mərmi qəlpələrindən qorumağa xidmət edir. Lakin zirehin müdafiə imkanları texnikanın modelindən və qorunma səviyyəsindən asılıdır. Buna görə də zirehli transportyoru bütün növ döyüş vasitələrinə qarşı tam təhlükəsizlik təmin edən maşın kimi qiymətləndirmək düzgün deyil. Silahlanma baxımından da bu texnikanın müxtəlif modifikasiyaları mövcuddur. Bəzi modellərdə iriçaplı pulemyotlar, digərlərində isə avtomatik toplar quraşdırılır. Silahların tərkibi və texniki göstəriciləri konkret maşının təyinatına uyğun müəyyənləşdirilir. Bu sistemlər texnikanın özünümüdafiə imkanlarını genişləndirməklə yanaşı, döyüş şəraitində bölmələrə atəş dəstəyi göstərməsinə də şərait yaradır. Bununla belə, zirehli transportyorun başlıca vəzifəsi şəxsi heyətin daşınması və mühafizəsidir. Bu xüsusiyyət onu piyada döyüş maşınından fərqləndirən əsas cəhətlərdəndir. Piyada döyüş maşınları isə şəxsi heyəti daşımaqla yanaşı, daha geniş döyüş və atəş dəstəyi imkanlarına malik olmaq üçün layihələndirilir. Bu texnikanın səmərəli istifadəsi yalnız konstruktiv göstəricilərlə məhdudlaşmır. Ekipajın peşəkarlığı, sürücünün hazırlığı, komandirin idarəetmə bacarığı və texniki xidmətin keyfiyyəti də mühüm amillərdir. Müntəzəm texniki baxış, mühərrikin və transmissiyanın sazlığının yoxlanılması, hərəkət hissəsinin vəziyyətinə nəzarət, rabitə və silah sistemlərinin işlək saxlanılması hərbi maşının etibarlı fəaliyyətinin əsas şərtlərindəndir. Texnikanın təyinatı üzrə istifadəsi və təhlükəsizlik qaydalarına riayət edilməsi də bu prosesin ayrılmaz hissəsidir.

Zirehli transportyorla piyada döyüş maşını arasındakı fərqin düzgün anlaşılması hərbi terminologiya baxımından da əhəmiyyətlidir. Hər iki texnika şəxsi heyətin daşınmasına xidmət etsə də, onların layihələndirilməsində əsas götürülən prioritetlər eyni deyil.

Beləliklə, transportyor anlayışı hərbi nəqliyyat vasitələrinin mühüm istiqamətini əhatə edir. Zirehli transportyorlar isə quru qoşunlarının hərəkət imkanlarının artırılmasında, şəxsi heyətin mühafizəsində və bölmələrin döyüş tapşırıqlarını yerinə yetirməsində əhəmiyyətli yer tutur. Onların texniki imkanları ilə hərbi qulluqçuların peşəkarlığının vəhdəti müasir döyüş şəraitində qarşıya qoyulan vəzifələrin uğurla icrasına xidmət edən əsas amillərdəndir. Lakin qeyd edilməlidir ki, müasir texnologiyanın inkişafı və əməliyyatlarda innovasiyaların tətbiqi, bu texnikaların efektivliyinin azalmasına səbəb olmuşdur.

Hazırladı:
Emil MURADLI
"Azərbaycan Ordusu"

İdman



Azərbaycan kikboksçusu 13-cü dəfə Avropa çempionu olub

Azərbaycan kikboksçusu Eduard Məmmədov Şimali Makedoniyanın paytaxtı Skopyedə keçirilən Avropa çempionatında iki qızıl medal qazanıb.

Noyabrın 7-dən 14-dək təşkil olunan WAKO versiyası üzrə qitə birinciliyində Azərbaycan təmsilçisi "Master Class" kateqoriyasında, 63 kiloqram çəki dərəcəsində iki versiya üzrə mübarizə aparıb.

İdmançımız "Light Contact" versiyasının finalında Portuqaliya təmsilçisi Emanuel Kortesi, "Kick Light" versiyasında isə Macarıstan idmançısı Marton Hası və İtaliya təmsilçisi Alessandro La Mantianı məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Beləliklə, Eduard Məmmədov karyerasında 13-cü dəfə Avropa çempionu tituluna sahib çıxıb.

Azərbaycan gimnastı gənclər arasında Dünya çempionatında tarixi bürünc medal qazanıb



Çinin Nankin şəhərində keçirilən batut gimnastikası üzrə gənclər arasında Dünya çempionatında Azərbaycan gimnastı Ammar Baxşalıyev tarixi nailiyyətə imza atıb.

Fərdi proqramda mübarizə aparan təmsilçimiz təsnifat mərhələsində 54.850 xal toplayaraq 6-cı pillədən finala yüksəlib.

Həlledici mərhələdə uğurlu çıxışını davam etdirən Ammar Baxşalıyev 55.450 xal toplayaraq bürünc medalın sahibi olub. Yarışda qızıl medalı Yaponiya, gümüş medalı isə Türkiyə təmsilçisi qazanıb.

Bu nəticə Azərbaycan batut gimnastikası tarixində əlamətdar hadisə kimi yadda qalıb. Belə ki, Ammar Baxşalıyev gənclər arasında Dünya çempionatında fərdi proqramda medal qazanan ilk azərbaycanlı batut gimnastı olub.

Xəbərlər: hadisələr, faktlar



Husilər 600 Yəmən əsgərinin azad edildiyini açıqlayıblar

Yəməndəki husilər əsir götürülmüş 600 hökumət əsgərini birtərəfli qaydada azad ediblər.

Bu barədə "Əl-Masirah" televiziyası Husi Məhbusları İşləri Komitəsinə istinadən məlumat yayıb.

Təşkilatın rəhbəri Əbdülqadir əl-Murtadanın sözlərinə görə, bu, 2015-ci ildən - münaqişənin başlanmasından bəri ən böyük birtərəfli əfvdir və ümumilikdə husilərlə Yəmən hökuməti arasındakı münaqişə zamanı oxşar təşəbbüslər nəticəsində 2612 nəfər azadlığa buraxılıb. Əsgərlərin azadlığa buraxılması Beynəlxalq Qırmızı Xaç Komitəsinin iştirakı ilə Sənada baş tutub.

ABŞ Yaponiyadakı bazasına F-15EX qırıcı təyyarələri yerləşdirib



Təkmilləşdirilmiş F-15EX qırıcı təyyarələri Yaponiyanın cənubunda Okinava adasındakı ABŞ Hərbi Hava Qüvvələrinin Kadena bazasına yerləşdirilib.

Bu barədə Yaponiya ictimai televiziyası məlumat yayıb.

Məlumata əsasən, modernləşdirilmiş döyüş təyyarələri ilk dəfə olaraq ABŞ xaricindəki hərbi bazaya yerləşdirilib.

Daha əvvəl bildirilmişdi ki, bu qırıcılardan 36-sının cəmi bir neçə il ərzində Okinavaya yerləşdirilməsi planlaşdırılır.

Dördüncü nəsil F-15EX qırıcısı 13,3 tona qədər faydalı yük daşıya bilir ki, bu da bəzi bombardmançı təyyarələri üstələyir.



Ərəb Koalisiyası Ər-Riyada atılan iki ballistik raketi zərərsizləşdirib

Səudiyyə Ərəbistanının rəhbərlik etdiyi Ərəb Koalisiyası paytaxt Ər-Riyad istiqamətində atılan iki ballistik raketi havada zərərsizləşdirib.

Koalisiya sözçüsünün "X" sosial şəbəkəsində yaydığı bəyanatda deyilir: "Hava hücumundan müdafiə qüvvələri husilər tərəfindən Ər-Riyada doğru atılan iki ballistik raketi ələ keçirərək məhv edib".

Hadisədən bir qədər əvvəl Ər-Riyadda hava həyəcanı siqnalının verildiyi barədə məlumatlar yayılmışdı. Bundan əlavə, koalisiya rəsmisi noyabrın 15-də Səudiyyə Ərəbistanının şərqində daha iki pilotsuz uçuş aparatının (PUA) ələ keçirilərək məhv edildiyini açıqlayıb.

AZƏRTAC-ın materialları əsasında

Baş gizir Hacalıyev Bəhruz Qurban oğluna verilmiş SQ № 0028094 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları əsgər Babayev Natiq Səfa oğluna verilmiş AD № 0067456 nömrəli və əsgər Şükürov Anar Mahmud oğluna verilmiş AD № 0043519 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Mahmudov Elnur Ədalət oğluna verilmiş MV № 101843 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Redaktor
mayor
Ceyhun CƏFƏRLİ

Telefon
Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi:
(012) 404-76-22

Ünvanımız
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

Qəzetin hesabı
2 saylı xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

Növbətçi
leytenant
Tamilla HÜSEYNLİ

Lisenziya № 361
Sifariş № 967
Nüsxə 3653